# Ən yaxşı müəllimin “açıq dərs”i



Yeni fənn kurikulumlarının tətbiqi vəziyyəti ilə tanış olmaq, dərslərdə fəal təlim üsullarından, yeni texnologiyalardan müəllimlərin nə dərəcədə səmərəli istifadə etmələrini müəyyənləşdirmək, qabaqcıl iş təcrübəsini öyrənib yaymaq məqsədi ilə digər təhsil ocaqlarında olduğu kimi, Bakıdakı 20 nömrəli məktəb-liseydə də tez-tez “açıq dərs”lər təşkil olunur. Həmin dərslərin müzakirəsi keçirilərək uğurlar və problemlər ətrafında fikir mübadiləsi aparılır. Növbəti belə “açıq dərs”i məktəbin ibtidai sinif müəllimi, “Ən yaxşı müəllim” müsabiqəsinin qalibi Sevda Rzayeva musiqi fənnindən IV “h” sinfində apardı. “Açıq dərs”də tanınmış bəstəkar, professor Oktay Rəcəbov, bu təhsil ocağından və digər məktəblərdən olan ibtidai sinif müəllimləri iştirak edirdilər. Öncə qeyd edək ki, S.Rzayevanın “Şərq musiqisi 8/6” mövzusunda dediyi “açıq dərs” onu dinləyənlər tərəfindən maraqla qarşılandı. Buna səbəb müəllimin dərsini müasir dərsə verilən tələblər səviyyəsində qurması, dərsdə maraqlı motivasiya yaratması, interaktiv təlim üsullarından, resurslardan geniş və yerli-yerində istifadə etməsi, şagirdləri müstəqil işlətmək üçün məqsədyönlü tapşırıqlar hazırlaması idi.

Əvvəlcə müəllim şagirdləri ifa etdiyi musiqi ilə salamladı. Sonra sinfi “Uzundərə”, “Yallı”, “Tərəkəmə”, “Cəngi” və “Turac” adlandırılan qruplara böldü. Şagirdlərə Azərbaycan musiqisinə aid suallar təqdim olundu. Şagirdlər verilən sualları əsasən düzgün cavablandırdılar. Suala cavab verən şagird çətinlik çəkəndə yoldaşları və müəllim ona kömək edir, düzgün cavaba istiqamətləndirirdilər. Şagirdlərin düzgün, ifadəli mahnı oxuması, musiqi haqqında düşüncələrini əlaqələndirərək fikir yürütməsi, dərsdə müəllimin əsasən qruplarla iş və “beyin həmləsi” üsullarından yaradıcı istifadə etməsi onun müasir dərsə verilən tələblər nəzərə alınmaqla qurulduğunu aydın göstərirdi. Yeni mövzunun möhkəmləndirilməsi mərhələsində müəllim sinifdəki 5 qrupun hərəsinə atalar sözü, rəsm və krossvord təqdim etdi. Sonra qrup liderləri həll olunmuş tapşırıqların təqdimatını etdilər, digər qrupların həmin təqdimatlara əlavələri dinlənildi. “Açıq dərs”də mövzuya uyğun rəsm, tarix, həyat bilgisi fənləri ilə yaradılan inteqrasiya da dərsi maraqlı etdi. Dərsin sonunda şagirdlər sözləri Hikmət Ziyanın, musiqisi Musa Mirzəyevin olan “Yeni il” mahnısını ifa etdilər.

Dərs başa çatdıqdan sonra onun müzakirəsi aparıldı.

Dərsi dinləyənlər müəllimin 45 dəqiqəlik fəaliyyətini müsbət qiymətləndirdilər, dərsin üstün cəhətlərindən söz açdılar, bəzi təklif və tövsiyələrini səsləndirdilər. Tanınmış bəstəkar, professor Oktay Rəcəbov bu dərsin yüksək səviyədə hazırlandığını qeyd etdi, müəllimin yaradıcı axtarışlarını yüksək qiymətləndirdi. Çıxışlarda habelə məktəbdə əlverişli təlim mühitinin yaradılmasında, “açıq dərs”lərin ənənə halını almasında məktəb-lisey rəhbərliyinin rolu xüsusi qeyd edildi.

**Rəşad ZİYADOV,**
*“Azərbaycan müəllimi”*